# Azərbaycan-Suriya münasibətlərində yeni mərhələ başlayır

## Əhməd Əl Şaraanın ölkəmizə səfəri hərtərəfli əlaqələrin inkişafına müsbət impuls verəcək

**Suriya Ərəb Respublikasının keçid dövrü Prezident Əhməd Əl Şaraa iyulun 12-də Azərbaycana işgüzar səfərə gəlib.**

Prezident İlham Əliyevlə Əhməd Əl Şaraanın həm geniş tərkibdə, həm də məhdud tərkibdə keçirilən görüşlərində iki ölkə arasında əlaqələrin inkişafı və Suriyada sabitliyin möhkəmləndirilməsi üçün zəruri olan bərpa prosesində Azərbaycanın iştirakı, həmçinin ölkəmizin qazının Suriya bazarına çıxarılma məsələsi müzakirə mövzusu olub.

Öncə onu xatırladaq ki, liderlərin bu görüşü sayca ikincidir. Bu il aprelin 11-də Prezident İlham Əliyev Antalyada keçirilən 4-cü Diplomatiya Forumu çərçivəsində Əhməd Əl Şaraa ilə görüşmüşdü. Bu görüşdə Suriyada baş vermiş dəyişikliklərlə əlaqədar məmnunluğunu bildirən Prezident İlham Əliyev qeyd etmişdi ki, dəyişikliklərdən sonra Azərbaycan nümayəndə heyəti qısa müddət ərzində bu ölkəyə göndərilib və Əsəd rejiminin siyasəti səbəbindən uzun zaman fəaliyyət göstərməyən Azərbaycanın Suriyadakı səfirliyi fəaliyyətini bərpa edib.

Tarixən Azərbaycanla Suriya arasında yaxşı əlaqələr olub, amma Əsəd rejimi bu əlaqələrin inkişafına imkan verməyib. Bu gün isə münasibətlərin inkişafı, əlaqələrin genişləndirilməsi istiqamətində real imkanlar yaranıb.

Həmin görüşdə İlham Əliyev Suriyada sabitliyin möhkəmləndirilməsi üçün zəruri olan bərpa prosesində Azərbaycanın iştirak etməyə hazır olduğunu vurğulamış, Əhməd Əl Şaraa isə Azərbaycanın dəstəyinə görə İlham Əliyevə minnətdarlığını bildirmişdi. O, gələcəkdə energetika, infrastruktur, təhlükəsizlik sahələrində Azərbaycanın Suriyaya dəstək göstərməsinin önəmini qeyd etmişdi.

Görüşdə eyni zamanda Azərbaycan-Suriya-Türkiyə üçtərəfli əməkdaşlıq formatının inkişafı məsələsinə toxunulmuş, ölkələrimiz arasında yüksəksəviyyəli rəsmi nümayəndə heyətlərinin və biznes dairələrinin təmsilçilərinin qarşılıqlı səfərlərinin həyata keçirilməsi ilə bağlı razılıq əldə olunmuşdu. Prezident İlham Əliyev Əhməd Əl Şaraanı ölkəmizə səfərə dəvət etmişdi.

Bundan 3 ay sonra Suriya Ərəb Respublikasının keçid dövrü Prezidentinin ölkəmizə səfəri reallaşdı. Prezident İlham Əliyevlə keçirilən görüşlərdə münasibətlərin daha da inkişaf etdirilməsi, energetika sahəsində birgə əməkdaşlıq məsələləri müzakirə edildi.

Ümumiyyətlə, iki ölkə arasındakı münasibətlərə gəlincə, Suriyada hakimiyyət dəyişikliyindən sonra Azərbaycan bu ölkəyə və onun ərazi bütövlüyünə, suverenliyinə dəstəyini ifadə edən dövlət olub. Azərbaycan Türkiyə ilə birlikdə Suriyanın münaqişədən sonrakı dövrdə inkişafına, bərpa-quruculuq prosesinə töhfə verməyə hazırlığını ifadə edib.

Prezident İlham Əliyevin tapşırığına əsasən, Baş nazirin müavini Samir Şərifovun rəhbərlik etdiyi nümayəndə heyəti, XİN-in nümayəndə heyəti Suriyada səfərdə olub, bu ölkənin bərpa və quruculuğuna Azərbaycanın nə kimi dəstək verə biləcəyini öyrəniblər. Azərbaycan-Suriya əlaqələri eyni zamanda dövlətimizin Yaxın Şərq siyasətinin bir hissəsidir. Azərbaycan Avropa, Mərkəzi Asiya istiqamətində fəal siyasət yürütdüyü kimi, Yaxın Şərq regionunda da fəallığı ilə seçilir.

Prezident İlham Əliyevin bu siyasəti nəticəsində Azərbaycan, hər yerdə olduğu kimi, Yaxın Şərq regionunda da etibarlı tərəfdaş kimi tanınır.

Azərbaycan ərazi bütövlüyünü və suverenliyini tam bərpa etdikdən sonra qlobal xarici siyasət konsepsiyasına keçmiş, fərqli istiqamətlərdə fəal xarici siyasət yürütməyə başlamışdır.

Onu da xüsusi olaraq vurğulamalıyıq ki, Azərbaycan Suriya ilə İsrail arasında gərginliyin aradan qaldırılmasında və danışıqlar prosesində sakit diplomatiya prinsipindən çıxış edərək görüşlərin təşkil olunmasına öz töhfəsini verib. Həmçinin Türkiyə ilə İsrail arasında və Suriya mövzusunda gərginliyin aradan qaldırılmasında qaynar xətt mexanizmi yaradılmasında önəmli rol oynayıb.

Bütün bunlar onu göstərir ki, Prezident İlham Əliyevin şəxsi nüfuzu ölkəmizə yeni tərəfdaşlıq modellərini gətirir, yeni tərəfdaşlar qazandırır.

Əhməd Əl Şaraanın ölkəmizə işgüzar səfəri çərçivəsində həmçinin Azərbaycan Respublikası Dövlət Neft Şirkəti (SOCAR) ilə Suriya Ərəb Respublikası Hökuməti arasında Anlaşma Memorandumu imzalandı.

Bu sənədə əsasən deyə bilərik ki, iki ölkə arasında yeni istiqamət Azərbaycan qazının Suriya bazarına çıxarılmasıdır. Bu da onu deməyə əsas verir ki, 12 ölkəyə qaz ixrac edən Azərbaycan üçün yeni coğrafiya formalaşır - Yaxın Şərq. Suriya həm özü Azərbaycan qazını idxal edə bilər, həm də tranzit ölkə rolunu oynaya bilər. Çünki artıq Türkiyə ilə Suriyanı birləşdirən qaz kəməri bərpa edilib. Suriyanı İordaniya ilə birləşdirən qaz kəməri dağıdılsa da, onun bərpası mümkündür. Bu da Azərbaycan qazının Suriyadan keçməklə Misirə qədər çatdırılması perspektivini vəd edir.

Artıq Türkiyə üzərindən 1 milyard kubmetr qazın Suriyaya ixracı məsələsi Suriya Prezidentinin Bakıya səfəri çərçivəsində müzakirə olunduğu üçün deyə bilərik ki, Azərbaycanın təbii qaz ixrac etdiyi ölkələrin sayı 13-ə çatacaq.

Eyni zamanda Azərbaycanın elektrik enerjisi istehsalı kimi qarşısında yeni imkanlar açılır. Ölkəmiz Yaxın Şərq regionuna da elektrik enerjisi ixrac edə bilər.

Suriya Ərəb Respublikasının ölkəmizlə münasibətlərə üstünlük verməsi Azərbaycan şirkətlərinin bu ölkənin bazarında fəaliyyətə başlamasının mümkünlüyünü də gücləndirir.

Azərbaycan və Suriya arasında əməkdaşlıq kontekstində təhsil, səhiyyə və sosial proqramların da ön plana çıxması mümkündür. Azərbaycan bu sahədə Suriyaya təqaüdlər, kurslar və mübadilə proqramları təklif edə bilər.

Azərbaycanın İslam Əməkdaşlıq Təşkilatı və Qoşulmama Hərəkatı çərçivəsində qazandığı nüfuz, humanitar proqramların genişlənməsi üçün platforma rolunu oynaması Suraiya Ərəb Respublikası üçün böyük əhəmiyyət daşıyır.

Əminliklə deyə bilərik ki, bu səfər iki ölkə arasındakı münasibətlərə müsbət impuls verəcək və Azərbaycanın Yaxın Şərq siyasətində yeni uğurlu səhifə açacaq.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

Azərbaycan.-2025.- 13 iyul (№ 142).- S.2.